# Ümumi Statistika

2021-ci il 1 yanvar vəziyyətinə olan statistik məlumata görə Azərbaycan əhalisinin ümumi sayının 50,1 faizini qadınlar təşkil edir.

Məşğul əhalinin ümumi sayında məşğul qadınların xüsusi çəkisi 48,2 faiz təşkil edir, onlardan 78,7 faizi özəl sektorda, 21,3 faizi isə dövlət sektorunda çalışır.

Təhsil sahəsində məşğul qadınların xüsusi çəkisi 74,5 faiz, əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi sahələrində isə 75,8 faiz təşkil etmişdir.

Bədən tərbiyəsi və idmanla məşğul olanların 42,6 faizi qadınlardır.

Ölkədə gender siyasətinin həyata keçirilməsi qadınların ictimai-siyasi həyatın bütün sahələrində, o cümlədən qərarların qəbulunda iştirakının artması ilə nəticələnmişdir. Məsələn, 2005-ci ildə keçirilmiş parlament seçkilərində 14 qadın (11,2%), 2010-cu ildə 20 qadın (16%), 2015-ci ildə 21 qadın (16,8%) və 2020-ci ildə 22 qadın (18,3%) qalib gəlib.

Yerli dövlət qurumlarında qadınların iştirakı da artmaqdadır. Qadınlar 2004-cü ilin bələdiyyə seçkiləri zamanı bələdiyyə orqanı üzvlərinin 4 %-ni, 2009-cu ildə 26,5%-ni, 2014-cü ildə 35%-ni, 2019-cu ildə isə 39%-ni təşkil edib.

Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən, 2010-cu ildə məşğul əhalinin tərkibində məşğul qadınların sayı 2101,7 min nəfər təşkil etmiş və 2019-cu ildə bu göstərici 11,8 faiz artmışdır.Muzdla işləyənlərin sayında bu dövr ərzində qadınların xüsusi çəkisi 9,6 faiz artmışdır.